Gürcüstan paytaxtında “Mərkəzi Asiya və Qafqaz regionunda bioloji təhlükəsizliyin sabitliyi” mövzusunda seminar başlayıb.

Böyük Britaniyanın Bioloji Təhlükəsizlik Assosiasiyasının Beynəlxalq Federasiyasının dəstəyi ilə keçirilən tədbirdə Gürcüstan, Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Tacikistan və Ermənistandan gələn nümayəndə heyətləri iştirak edir. Azərbaycanı Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Faiq Ramazanov təmsil edir.

Seminarın birinci günü bir çox məsələlər müzakirə edilib və əldə edilən təcrübələr barədə fikir mübadiləsi aparılıb. Tədbirdə QHT-lərin bioloji təhlükəsizlik sahəsində rolunun artırılması, laboratoriya xidmətinin yaxşılaşdırılması, dövlətin siyasətində bioloji təhlükəsizlik məsələlərinə önəm verilməsi, əhali arasında bioloji təhlükəsizlik barədə təbliğat aparılmasının vacibliyi vurğulanıb.

Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Faiq Ramazanov jurnalistlərə açıqlamasında seminarda Kür çayının Gürcüstan hissəsinin çirklənməsi məsələsini qaldırdığını bildirib: “Çaya axıdılan çirkab sular xəstəliklərə səbəb olur”. F.Ramazanov Ermənistandan Azərbaycana axan çayların da çirkləndiyini, bu sulara insan həyatı üçün təhlükəli olan kimyəvi tullantılar töküldüyünü də bildirib.

Böyük Britaniyanın Bioloji Təhlükəsizlik Assosiasiyasının Beynəlxalq Federasiyasının vitse-prezidenti, Tiflis Aqrar Universitetinin professoru Leila Bakamidze Kür çayına axıdılan çirkab suların axıdılmasına münasibət bildirib: “Tədbirin əhəmiyyəti böyükdür. Kür çayına çirkab suların axıdılması məsələsi keçən il Qazaxıstanda keçirilən tədbirdə də qaldırılıb. Bu gün də Azərbaycan nümayəndəsi bu vacib məsələni qaldırdı. Ona görə də biz çalışacağıq ki, bizə qonşu olan Azərbaycana Kür çayı vasitəsilə axıdılan çirkab tullantılarının qarşısını alaq”.

Tədbir 4 gün davam edəcək.